# ULU ÖNDƏRİN MİLLİ İRSİMİZƏ VERDİYİ DƏYƏR

***Vüsalə Bəbirova***

*Çıraqqala –Şabran Dövlət Tarix-Mədəniyyət*
*Qoruğunun baş fond mühafizi*
*bebirova83@bk.ru*

***Açar sözlər:*** *milli-mənəvi irsimiz, tarixi yaddaşımız, ulu öndərin bu istiqamətdəki fəaliyyəti*

***Ключевые слова:*** *национальное духовное наследие, историческая память, деятельность великого лидера в этом направлении*

***Keywords:*** *national moral heritage, historical memory, the great leader's activities in this direction*

**Xülasə:** Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Bu gün Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada Ulu öndər Heydər Əliyevin əməyi, nişanəsi olmasın. Ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqına həsr edib və bu gün bütün sahələrdə ümummilli liderin əməyi özünü göstərir, ələxsus da mədəniyyət sahəsində. Belə ki, xalqın tarixini, onun mədəniyyətini, milli- mənəvi dəyərlərini qorumağı hər şeydən üstün tutan ulu öndər onların olduğu kimi gələcək nəslə çatdırılmasını da vacib sayırdı. Xalqını da milli-mənəvi dəyərlərimizi, tarixi yaddaşımızı qoruyaraq nəsildən-nəsilə ötürülməsini tövsiyə edirdi.

Heydər Əliyevin həyatı bütöv bir tarixdir. Onun bütün həyatı, fəaliyyəti Azərbaycan xalqı üçün örnəkdir.

**Резюме:** Гейдар Алиев могущественная личность, которая путем последовательной борьбы успешно вывела свой народ из сложных исторических и политических испытаний времени и привела его к независимости. Азербайджанский народ вступил в новый век и новое тысячелетие именно в свете интеллекта Гейдара Алиева. Сегодня в Азербайджане нет уголка, где бы не оставил свой след великий лидер Гейдар Алиев. Великий лидер Гейдар Алиев посвятил всю свою жизнь азербайджанскому народу, и сегодня деятельность общенационального лидера проявляется во всех сферах, особенно в сфере культуры. Таким образом, великий лидер, ставивший превыше всего сохранение истории народа, его культуры, национально-духовных ценностей, считал важным передать их будущим поколениям такими, какие они есть. Он также посоветовал своему народу сохранять наши национальные и духовные ценности, историческую память, передавая их из поколения в поколение.

Жизнь Гейдара Алиева целая история. Вся его жизнь и деятельность являются примером для азербайджанского народа.

**Summary:** Heydar Aliyev is a powerful figure who successfully led his people through the complex historical and political trials of the time and, through consistent struggle, achieved independence. The people of Azerbaijan entered the new century and the new millennium precisely in the light of Heydar Aliyev's intelligence. Today, there is no corner of Azerbaijan where the great leader Heydar Aliyev's work and mark are not there. The great leader Heydar Aliyev dedicated his whole life to the people of Azerbaijan, and today the work of the national leader is evident in all fields, especially in the cultural field. Thus, the great leader, who prioritized preserving the history of the people, their culture, and their national and spiritual

values above all else, considered it important to pass them on to future generations as they were. He also advised his people to preserve our national and spiritual values and historical memory, passing them on from generation to generation.

Heydar Aliyev's life is a whole history. His whole life and activities are an example for the Azerbaijani people.

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı da hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Milli-mənəvi dəyərlərdən danışarkən xüsusi vurğu ilə qeyd olunmalıdır ki, bizim misilsiz mənəvi irsimiz olan Heydər Əliyev şəxsiyyəti bu anlayışla ayrılmaz surətdə bağlıdır. Ulu öndərimiz sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqilliyi illərində də milli dəyərlərimizə sahib çıxmışdır. O, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü. Ümummilli lider milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın–dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan Ulu Öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaqdır.Respublikamızda ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir.

Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, onların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır.

Məlumdur ki, ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda, islam dini xalqımızın həm dini əqidəsi, həm də milli-mənəvi dəyərləri kimi insanların həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Xalqımızın mənəvi inkişafında gənclərimizin əxlaqının formalaşmasında, azərbaycanlıların ailə institutunun möhkəm təmələ söykənməsində islamın rolu əvəzsizdir. İslam bütün müsəlman dünyası tərəfindən qəbul edilə biləcək vahid ilahiyyat konsepsiyası yaratmışdır. İslamın həyat qabiliyyəti dini sistem çərçivəsində müxtəlif nöqteyi-nəzərlərin yanaşı mövcudluğuna imkan verməsi ilə təmin olunur. Ulu öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, xüsusən dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Azərbaycan xalqının milli həmrəyliyinin bərqərar olmasında Qurban bayramının xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Ümummilli lider Heydər Əliyev 2003-cü ildə Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən demişdir: "Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha çox birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin".

Heydər Əliyev həyata keçirdiyi dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərinə başladı. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev hər il qədim milli

bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı.

Milli mənəvi irsimizin əsas hissəsi olan Azərbaycan mədəniyyətini mənəvi dəyərləri təkcə milli varlıq kimi deyil, həm də siyasi varlığımızın-dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.

Ulu öndər deyirdi ki, "xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Məhz ona görə də Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını həmişə diqqət mərkəzində saxlamışdır.

Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sabahkı uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır.

Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün mümkün olan hər şeyi edirdi.

Bizim nəsil xoşbəxtdir ki, Heydər Əliyevlə bir epoxada yaşamaq bizə nəsib oldu və Ulu öndərin mədəniyyətimizə, incəsənətimizə göstərdiyi böyük qayğının şahidi olduq.

Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından bəhrələnməsin. musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltaraşlıq və rəssamlığımız da, tarixi özündə yaşadan abidələrimiz, xalça sənətimiz də bugünkü inkişafında Ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoydu. Mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz, o cümlədən tarixi özündə yaşadan qədim abidələrimiz beynəlxalq aləmdə tanındı.

Tarixi abidələr hər bir xalqın konkret coğrafi məkanda min illər, əsrlər boyu formalaşdığını, təşəkkül tapdığını təsdiq edən yeganə mənbələrdir. Müdriklərimiz demişkən, rəvayətlər susanda və əlyazmalar itəndə daşlar danışır. Azərbaycan xalqının qədim mədəni sərvətləri içərisində tarix və memarlıq abidələri xüsusi yer tutur. Azərbaycan mədəniyyətinin əhəmiyyətli nümunələri olan bu abidələr mədəniyyət tariximizin öyrənilməsində mühüm mənbələrdən sayılır. Tarix və mədəniyyət abidələrimiz xalqımızın minilliklər boyu bu torpaqlarda yaşadığını sübut edən, maddi və mənəvi həyatımızın, tariximizin daşlaşmış yadigarlarıdır. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi-mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görülmüşdür. "Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir", – deyən Ulu öndərin rəhbərliyi ilə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılmışdır.

Ulu öndərin tarixi abidələrə diqqət və qayğısının bariz nümunələrindən biri də 1983-cü ilin sentyabrında Şabran rayonunda olarkən" Qədim Şabran " abidəsini ziyarət etməsi oldu. AMEA-nın arxeoloqu,tarix elmlər doktoru,professor Rəşid Göyüşovun rəhbərliyi altında keçirilən arxeoloji qazıntılarla yaxından tanış olmuş , bu haqda belə bir fikir söyləmişdir."Şabran bizim 2300 illik şəhər mədəniyyətini özündə yaşadır". Bura baxdıqca biz həmin dövrün istehsal mədəniyyətini öyrənirik. Belə bir abidənin məhv olmaması və tarixdə qalması , yaşanması üçün əlimizdən nə gəlirsə etməliyik.

Qədim Şabran abidəsində qazıntı işlərində yaxından iştirak edən digər bir arxeoloqumuz Fatma Abbasova da Ulu öndərlə görüşündən sonrakı təəssüratlarını öz oxucuları ilə paylaşmışdır: Bəşər tarixində yer üzünə elə insanlar gəlmişdirki, onlar üçün Vətənin, xalqın, ümumiyyətlə, dünyadakı bütün insanların taleyi öz həyatlarından daha qiymətli, daha üstün olmuşdur. Bu insanların həqiqətən bütün bəşəriyyət üçün zəruri olan təbiətdəki, cəmiyyətdəki – ictimai inkişafındakı bir çox dəyişikliklərin səbəbkarı hesab etmək olar. Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyev də XX əsrdə

yer üzünə gəlmiş belə nadir şəxsiyyətlərdən biri idi. Həyatın bütün sahələrində qeyri-adi fenomenlik qabiliyyətinə malik olması ilə fərqlənən bu şəxsiyyətin Azərbaycan xalqının zəngin mədəni irsinin öyrənilib, qorunub saxlanılmasında xidmətləri böyük olmuşdur.

Elmə, mədəniyyətə, elm xadimlərinin fəaliyyətinə yüksək qiymət verən dahi səxsiyyəti daim xalqımızın, bütün insanların xoşbəxt gələcəyi maraqlandırır, qarşıya qoyulan hər bir çətinliyi aradan qaldırmağa çalışırdı. Məhz onun fəaliyyəti, qayğısı nəticəsində Azərbaycanda həyatın bütün sahələrində böyük quruculuq işləri görülmüş və yüksək nəaliyyətlər əldə edilmişdi. Azərbaycanın möhtəşəm qədim və orta əsr şəhəri olan Şabranın tarixinin öyrənilməsində onun böyük rolu olmuşdur.

İllər keçməsinə baxmayaraq hər zaman tarixə, mədəniyyətə eyni qayğı ilə yanaşan Heydər Əliyev yenidən Şabran abidələrinə diqqəti bir az da artırdı. Belə ki, yaşadığımız Şabran rayonun dağılıb getməkdə olan iki tarixi abidəsini 23 iyun 2003-cü il 1262 nömrəli Sərəncamla "Çıraqqala" və 27 sentyabr 2003-cü il 1343 nöm Sərəncamla "Qədim Şabran "abidələrini qoruq elan etdi. Bu tarixi abidələri qoruq elan etməkdə məqsəd həmin abidələrin ilk növbədə qorunması, təbliğini təşkil etmək və gələcək nəslə olduğu kimi çatdırmaqdır. Və bu məqsədlə tarixi abidələr qoruq elan olunduğu gündən etibarən işçi heyyəti tərəfindən həm qorunur, həm də təbliğ olunaraq ölkəmizdə və həm də ölkədən kənarda tanıdılır. Sevindirici haldır ki, rayonumuzun 3 qədim tarixi abidəsi UNESCO-nun Ümumdünya irs siyahısına salınmışdır.

Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bugünədək qoruyub saxlaya bilmişdir. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və onun böyük hissəsi bugünədək qorunub saxlanılmışdır. Milli dövlətin formalaşmasında, güclü və əbədiyaşar olmasında onun mənəvi əsaslarının milli dəyərlərlə səsləşməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Ulu Öndər Heydər Əliyev məktəbinin gənc nəslə aşılanması ən vacib məsələlərdən biridir. Heydər Əliyevin həyatı bütöv bir tarixdir. Onun bütün həyatı, fəaliyyəti Azərbaycan xalqı üçün örnəkdir.

**Ədəbiyyat**

1. *Axundova E.* Heydər Əliyev - Şəxsiyyət və Zaman: 1982-1990. - Bakı: Ozan, 2009.
2. *Abbasova F.* Şabran şəhərinin tarixi arxeoloji tədqiqinə dair materiallar. - Bakı, Elm, 2009.